

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 fevral 2026-cı il №14 (3016) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfər edib.*




Fevralın 18-də dövlətimizin başçısı Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüşüb.

Söhbət zamanı Amerika İsrail İctimai Əlaqələr Komitəsinin nümayəndə heyətinin ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanıb.

Azərbaycanda bütün dinlərin və mədəniyyətlərin nümayəndələrinin bir ailə kimi sülh və mehribanlıq şəraitində yaşadıqlarını, bunun dünya üçün nümunə olduğunu deyən Elliot Brandt ölkəmizdə yəhudi icmasına dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu harmoniya şəraitində yaşadıqlarını vurğulayıb, tolerant mühitin ölkəmiz üçün tarixən həyat tərzi olduğunu deyib.

Görüşdə Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə qlobal səviyyədə verdiyi töhfələr yüksək qiymətləndirilib.

Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunulub, Donald Trampın hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi vurğulanıb.

Bir müddət əvvəl Amerika Birləşmiş Ştatlarının Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə uğurlu səfərinə və "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının əhəmiyyətinə toxunulub. Bu Xartiyada ölkələrimiz arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, süni intellekt və rəqəmsal transformasiya məsələlərinin də prioritet istiqamətlər kimi müəyyən edildiyi qeyd olunub.

**(Ardı 2-ci səhifədə)**

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayı münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Ramazan ayınız mübarək!

Bütün dünya müsəlmanlarını Ramazan ayının başlanması münasibətilə təbrik edir, Allahdan hər kəsin dua və orucunun qəbul olunmasını diləyirəm".

## Bakı Hərbi Kollecinin kursantları təcrübə prosesinə cəlb olunublar

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecinin “Hərbi dənizçilik” ixtisası üzrə təhsil alan kursantları Hərbi Dəniz Qüvvələrinin bölmələrində təcrübə prosesinə başlayıblar.



Milli Müdafiə Universiteti xəbər verir ki, təcrübə prosesi çərçivəsində kursantlar gəmiçilik və naviqasiya qaydalarını real şəraitdə tətbiq edir, dəniz təhlükəsizliyi və gəmi heyətinin idarə olunması üzrə biliklərini möhkəmləndirir, rabitə və siqnal sistemləri ilə işləmə bacarıqlarını inkişaf etdirir, dəniz şəraitində taktiki manevr və döyüş hazırlığı üzrə məşğələlərdə iştirak edirlər.



Həmçinin kursantlar döyüş gəmilərində və sahil bölmələrində xidmətin xüsusiyyətləri ilə yaxından tanış olur, dəniz şəraitində qərar qəbuletmə, operativ düşünmə və komanda idarəetməsi bacarıqlarını formalaşdırırlar.

Təcrübənin əsas məqsədi gələcək miçmanların nəzəri biliklərini praktik bacarıqlarla inkişaf etdirmək, onların peşəkarlıq səviyyəsini yüksəltmək və Azərbaycan Ordusu üçün yüksək ixtisaslı kadrlar hazırlamaqdır.

## “Fiziki hazırlıq bizə mübarizə aparmağı öyrədir”

Azərbaycan Ordusunda döyüş qabiliyyətinin möhkəmləndirilməsi yalnız silahlanma ilə məhdudlaşmır, bu gücün əsasını yüksək fiziki hazırlığa malik, iradəli və peşəkar hərbi qulluqçular təşkil edirlər. Dövlətin ordu quruculuğu sahəsində həyata keçirdiyi məqsədyönlü siyasətin mühüm istiqamətlərindən biri də məhz sağlam kadr potensialının formalaşdırılmasıdır. Fiziki hazırlıq orduda sadəcə məşq prosesi deyil, hərbi qulluqçuların döyüş meydanında çevik qərar verməsinə, çətin şəraitdə davam gətirməsinə və tapşırıqları qüsursuz yerinə yetirməsinə xidmət edən əsas amildir. Bu səbəbdən hərbi hissələrdə idman məşğələləri sistemli şəkildə təşkil olunur və komandirlər tərəfindən daim diqqət mərkəzində saxlanılır.

"N" hərbi hissəsində bu diqqət və məsuliyyətin real nəticələrini gözlərimizlə müşahidə etdik. Burada xidmət edən hərbi qulluqçuların fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə məşğələlər günün nizam-intizam qaydalarına uyğun olaraq planlı şəkildə həyata keçirilir.

**(Ardı 8-ci səhifədə)**



## Müasir hərbi təhsil güclü Azərbaycan Ordusunun təminatıdır

Müasir dövrdə dövlətin təhlükəsizliyi və müdafiə qabiliyyəti birbaşa peşəkar orduya malik olmaqla şərtlənir. Peşəkar ordunun formalaşmasında hərbi təhsil sistemi həlledici rol oynayır. Azərbaycanda hərbi təhsil sistemi Silahlı Qüvvələrin yüksək hazırlıqlı və Vətənə sədaqətli hərbçi kadrlarla təmin olunmasına xidmət edən strateji sahə kimi formalaşdırılıb.

Azərbaycan Respublikasında hərbi təhsilin əsası müstəqilliyin ilk illərindən etibarən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olub. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesində hərbi təhsilin təşkili və inkişafı xüsusilə diqqət mərkəzində saxlanılıb. Bu dövrdə milli hərbçi kadrların hazırlığı sistemi formalaşdırıldı, hərbi təhsil müəssisələrinin fəaliyyəti vahid konsepsiya əsasında quruldu.

Azərbaycanda hərbi təhsil sisteminin formalaşması mərhələli xarakter daşıyır. İlkin (başlanğıc) mərhələdə hərbi liseylər gənclərdə nizam-intizam, fiziki hazırlıq və hərbi xidmətə maraq formalaşdırır, gələcək zabit, gizir və çavuş heyətinin əsasını təşkil edir. Ardınca ali və orta ixtisas hərbi təhsil pillələrində peşəkar kadrların hazırlanması həyata keçirilir.

**(Ardı 5-ci səhifədə)**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri






(Əvvəli 1-ci səhifədə)

Amerika İsrail İctimai Əlaqələr Komitəsinin Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsində rolu vurğulanıb.

Görüşdə ölkəmizlə bu təşkilat arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Fevralın 19-da Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Sülh Şurasının ilk iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə iclasda iştirak edib.

Əvvəlcə birgə foto çəkdirilib.

ABŞ Prezidenti Donald Tramp tədbirdə çıxış edib.

Prezidentliyi dövründə 8 münaqişəyə son qoyduğunu deyən Donald Tramp vurğulayıb ki, iki çox vacib ölkə arasında sülh əldə edib və bunu heç vaxt unutmayacaq. ABŞ Prezidenti Azərbaycan və Ermənistan liderlərinə regionda yaranan sülhə görə təşəkkür edərək deyib: "Bilirsiniz, müharibə edəndə onun xərcləri sülhün dəyərindən 100 qat artıq olur. Orada sonda əyləşən cənabı (Prezident İlham Əliyevi - red.) görürük. O gülümsəyir. Otuz il mübarizədən sonra bu, aydın oldu, elə deyilmi? Otuz il müharibə gedib və biz onun öhdəsindən gəldik. Sizə çox minnətdaram, əla iş gördünüz. Siz və yeni dostunuz, ofisimə gəldiniz və dediniz, mən 22 il mübarizə aparmışam. Siz 23 ildir ki, fəaliyyətdəsiniz, eləmi? Lakin 22 il mübarizə aparmışam. Bax, onunla. Onun həmkarı isə dedi: "Mən də yeddi ildir rəhbərəm. Onunla mübarizə aparmışam". Biz isə 24 saatın içərisində işi yerinə yetirdik. Çox yaxşı sülh alındı. Düşünürəm ki, onlar artıq dostdur. Mən bəlkə bunu söyləməli deyiləm. Fikrimcə, onlar artıq dostdur, elə deyilmi? Qalxın ayağa. Bunlar möhkəm iradəli insanlardır. Elə bilirsiniz asan idi? Yox, asan deyildi. İki sərt insandır, amma yaxşı insanlardır. Oval ofisdə idik. Onlar ikisi də gəldi. Biri otağın bir tərəfində, digəri o biri tərəfində. Masa arxasında iki gözəl oturacaq var idi. Biri otağın bir yerində, digəri başqa yerində. Dedim onlara bəlkə bir-birinizə yaxın gələsiniz. Onlar bir az tərəddüd etdilər. Otuz iki il idi bir-birilərini məhv edirdilər. Dedim, bir-birinizə yaxın dayanın. Bir saat keçdi və onlar yan-yana oturdular. Razılaşma əldə etdik. Bir-birinin əlini sıxdılar, imzaladılar. Biz iki mühüm ölkə ilə sülhün əldə olunmasına imkan yaratdıq, heç vaxt unutmaram. Yavaş başladılar, sonra isə qəti addımlar atdılar. Siz özünüzlə çox fərəhlənə bilərsiniz. Gözəl hadisədir. Təşəkkür edirəm. Baxın. Otuz iki il... Sağ olun, çox sağ olun".












Sonra digər dövlətlərin nümayəndələrinin çıxışları dinlənilib.

İclasın sonunda Sülh Şurasının maliyyə intizamı və şəffaflığı prinsipləri haqqında qətnaməsi imzalanıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri fevralın 19-da başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**



# NATO-nun mobil təlim qrupunun heyəti ilə görüş keçirilib

Bakıda təşkil olunan "Tərəfdaş Ölkələrin Qabiliyyət Uyarlılığı Təşəbbüsü-2026" təlim kursu çərçivəsində Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsinin rəisi general-leytenant Azər Əliyev və nazirliyin mütəxəssisləri NATO-nun mobil təlim qrupunun heyəti ilə görüşüblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə mobil təlim qrupunun ekspertləri NATO və təlim kursunun mərhələləri haqqında məlumat veriblər.

Görüşdə peşəkarları bir araya gətirən təlim kursunun çoxmillətli qərargahlarda birgə planlama qabiliyyətinin artırılmasına, bilik və təcrübə mübadiləsinə, eləcə də ortaq dəyərlərin möhkəmlənməsinə xidmət etdiyi vurğulanıb.

Təlim kursunda aparılan müzakirələrin və keçirilən məşğələlərin böyük əhəmiyyətə malik olması, həmçinin müasir və sürətlə dəyişən təhlükəsizlik mühitində uzlaşmanın və qarşılıqlı əməkdaşlığın vacibliyi iştirakçıların diqqətinə çatdırılıb.



# Qalib ordumuzun şanlı tarixi

Ordu xalqın dövlətçiliyinin əsas sütunlarından biri, dövlətin suverenliyinin və ərazi bütövlüyünün təminatçısıdır. Tarixən də belə olub, indi də belədir. Sürətlə dəyişərək yenidən formalaşan çağdaş dünya nizamında dövlətlərin qüdrəti və nüfuzu müxtəlif meyarlarla yanaşı, ordusunun gücü ilə də müəyyən olunur. Azərbaycan Ordusunun tarixi mübarizə, fədakarlıq və sarsılmaz Vətən sevgisi üzərində qurulmuş şanlı bir yolun təcəssümüdür. Bu ordu təkcə silah yolu ilə deyil, milli ruhu, mənəvi dəyərləri və xalq-ordu birliyi ilə tarix yazan qalib ordudur. Qalib ordumuzun keçdiyi yol milli qürurumuzun, əyilməz ruhumuzun və müstəqilliyimizi, suverenliyimizi qorumaq əzminin bariz nümunəsidir. Ordumuz tarix boyu ən ağır sınaqlardan üzüağ çıxaraq sübut etmişdir ki, Azərbaycan torpaqlarının sahibi olan xalq onu qorumağa da, azad etməyə də qadirdir.



Müasir dövrdə qürurla deyə bilərik ki, ölkəmiz iqtisadi və siyasi nailiyyətlərə imza atmaqla yanaşı, ordu quruculuğu prosesində də böyük uğurlar əldə edib. Dövlətimizin yürütdüyü uğurlu siyasi kurs nəticəsində ordumuz müasir standartlar əsasında formalaşıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən köklü islahatlar sayəsində bu gün Azərbaycan Ordusu regionun ən güclü hərbi strukturlarından birinə çevrilib.

Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika olaraq xalqımızın dövlətçilik tarixində özünəməxsus rol oynadı və yeni milli dəyərlərlə tarixləşdi. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə Əlahiddə Azərbaycan Korpusu yaradıldı. Bu qərar Şərqin ilk demokratik hökumətinin öz ordusunu yaratmasına hüquqi əsas verdi. 1918-ci il mayın 28-də qəbul edilmiş "İstiqlal bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. 1919-cu ilin sonlarında şəxsi heyəti 25 min nəfər olan Azərbaycan Ordusunun 1920-ci ildə 40 min nəfərə çatdırılması planlaşdırılırdı.

AXC Sovetlər imperiyası tərəfindən ilhaq edildikdən sonra hərbi nazirlik ləğv olundu və ordu quruculuğu prosesi başa çatdırıla bilmədi. 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi yenidən bərpa olunduqdan sonra, oktyabrın 9-da milli ordunun yaradılması haqqında Azərbaycan Respublikasının Ali Şoveti qanun qəbul etdi. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il tarixli Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan edildi.

Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusunun tarixi ənənələri bu gün yeni müstəvidə qorunub saxlanılır və inkişaf etdirilir. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin ciddi səyləri nəticəsində mümkün oldu. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində ordu quruculuğu prosesi ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi və gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı.

Ordumuz yaradılmasına başlanıldığı vaxtdan müxtəlif təzyiqlərə məruz qaldı. Həm xaricdən, həm də daxildən göstərilən təzyiqlərin əsas məqsədi Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğunun qarşısını almaq idi. Sovet hakimiyyəti dövründə də azərbaycanlılara qarşı fərqli hərbi siyasət aparılırdı. Çar dövründən fərqli olaraq bu zaman azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Lakin onlar əsasən tikinti yönümlü hərbi hissələrdə xidmət edirdilər. Bu siyasət azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin hazırlanmasına imkan verməmək məqsədi daşıyırdı.

Ulu Öndər bu siyasətin mahiyyətini tam dəqiqliyi ilə anlayırdı; Azərbaycanda hakimiyyətə gəldikdən sonra 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi yaratdı. Həmçinin Ümummilli Lider azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinin və Bakı Ali Hərbi Dənizçilik Məktəbinin, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunmasına da nail olmuşdu. Bu gün tam əminliklə, qürurla deyə bilərik ki, C.Naxçıvanski adına Hərbi Lisey milli zabit kadrlarının hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rol oynayıb.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz hərbi sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas məsələ Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi və bu, çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı sahəsində də problemlər vardı. Ancaq tədricən müharibədəki mövqe məğlubiyyətlərinin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Könüllü taborlardan nizami orduya doğru ilk ciddi addımlar atıldı. Səfərbərlik və orduya çağırış işi nizamlandı.

Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası 1993-cü ilin sonlarında qoyuldu. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin ağır və çətin reallıqlar şəraitində ilk həyata keçirdiyi tədbirlərdən biri də ordu quruculuğu ilə bağlı oldu. 1993-cü il noyabrın 2-də televiziya və radio ilə xalqa tarixi müraciətində "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır", - deyən Ulu Öndər hamını bu yolda fədakar mübarizəyə, Azərbaycanın müdafiəsinə qalxmağa çağırdı. Məhz bu müraciət ordunun qüdrətli olmasına diqqət yönəltdi. Ordu vahid komandanlıq ətrafında birləşdirildi və nizami ordu yaradıldı. Həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, elmi əsaslarla davam etdirildi və ordu siyasi təsirlərdən xilas edildi.

Beynəlxalq standartlara uyğunlaşdırılması üçün Azərbaycan Ordusunda bir sıra önəmli addımlar atıldı. 1990-cı illərin ortalarından başlayaraq Azərbaycanın NATO ilə sıx və səmərəli əməkdaşlığı ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə, Silahlı Qüvvələrimizin modernləşdirilməsinə və müasir standartlara uyğunlaşdırılmasına səbəb oldu. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu; bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə "Planlaşdırma və analiz prosesi" proqramına, 2001-ci ildə isə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı"na daxil oldu. Görülən işlərin nəticəsi olaraq iki mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədi. Beynəlxalq sülhməramlı qüvvələrin tərkibində Kosovoda, Əfqanıstanda və İraqda zəngin təcrübə qazanan və öz standartlarını NATO standartlarına uyğunlaşdıran Azərbaycan Ordusu modern orduya çevrildi.

Ordu ilə xalq arasındakı əlaqələri yeni səviyyəyə qaldıran Ulu Öndər bu əlaqələri daha da səmimiləşdirdi. Bütün fəaliyyətində xalqa güvənən, xalqın etimadına arxalanan Ümummilli Lider Heydər Əliyev xalqı ordunun güc mənbəyi, ordunu xalqın bir hissəsi hesab edirdi və əmin idi ki, xalqın orduya belə münasibəti, xalqın ordunu qayğı ilə əhatələməsi ordunun inkişafı və möhkəmlənməsinin əsas şərtlərindən biridir.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğu prosesini dövlətin müstəsna səlahiyyətləri səviyyəsinə qaldırdı. Ordunu siyasətdən kənarlaşdıraraq ölkə Konstitusiyasından irəli gələn vəzifələrə xidmət göstərməsini təmin etdi, ordunun formalaşmasını, təşkilatlanmasını və təchizatını qəbul edilmiş qanunlarla normallaşdırdı. Orduda vahid komandanlığın praktiki əsaslarını yaradaraq idarəetmə strukturlarına qarşı məsuliyyəti ciddiləşdirdi və ordu quruculuğunu dövlət quruculuğunun digər sahələri ilə üzvi şəkildə əlaqələndirdi. Ordu dövlət qayğısı ilə əhatə olundu, tələbatları ödənildi və bu istiqamətdə dövlətin bütün orqanlarının cavabdehliyi artırıldı. Dövlətin və xalqın mənafelərinə cavab verən hərbi siyasət müəyyənləşdirildi; bununla da ordu quruculuğunun vəzifələri və icra yolları konkretləşdirildi və dövlətin yetərli müdafiə qabiliyyətinin yaradılması üçün əməli addımlar atıldı.

Bu gün Ali Baş Komandan İlham Əliyev də Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Silahlı Qüvvələrimizin gücləndirilməsi və bütün qoşun növlərinin döyüş hazırlığının yüksəldilməsi Prezident İlham Əliyevin respublikamıza rəhbərliyinin ilk günündən xüsusi diqqət yetirdiyi məsələdir. Prezident İlham Əliyev 2003-cü il oktyabrın 31-də ilk dəfə prezident kimi and içən vaxt etdiyi çıxışda bununla bağlı demişdir: "Azərbaycanda ordu quruculuğu sahəsində də böyük işlər görülmüşdür. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir". Bu kəlamlar reallıqda da öz təsdiqini tapdı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən uğurlu siyasət qısa vaxtda Azərbaycan Ordusunu Cənubi Qafqazın ən güclü ordusuna çevirdi. Dövlətimizin siyasi və iqtisadi baxımdan davamlı inkişafı ordumuzun gələcəkdə də öz inkişaf tempini saxlaması üçün əsaslı təminatdır.

Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi hərbi islahatlar ordu quruculuğunu yeni keyfiyyət mərhələsinə yüksəldərək Silahlı Qüvvələrimizin modern hərbi gücə çevrilməsini təmin etdi. Dünyanın qabaqcıl hərbi sənaye komplekslərinin istehsalı olan silah və texnikalar ordumuzun arsenalına daxil edildi. Müasir artilleriya qurğuları, reaktiv yaylım atəş və hava hücumundan müdafiə sistemləri, taktiki-raket və zenit-raket kompleksləri, pilotsuz uçuş aparatları qoşunlarımızın silahlanmasında yer aldı.

2016-cı ilin aprel ayının əvvəllərində Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması üçün həyata keçirilən əks-hücum əməliyyatı zamanı müasir silah və texnikaların səmərəli tətbiqi nəticəsində düşmənə sarsıdıcı zərbələr vuruldu. Əməliyyat zamanı düşmənin təmas xəttinin dərinliyindəki artilleriya, reaktiv və minaatan batareyalarına atəş zərbələri endirməklə ona böyük itkilər verildi.

Uğurlarımızın sırasında Əlahiddə Ümumqoşun Ordunun Naxçıvan Muxtar Respublikası ərazisində keçirdiyi Günnüt əməliyyatı da xüsusi yer tutmaqdadır. Bu uğurlar Azərbaycanın hərbi-siyasi mövqeyini daha da gücləndirdi və işğal altında olan bütün ərazilərimizi azad etməyə qadir olduğumuzu sübuta yetirdi.

Prezident İlham Əliyev hər zaman açıq şəkildə bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalarsa, Azərbaycan dövləti güc yolu ilə torpaqlarını işğaldan azad edəcək. 2020-ci ilin iyulunda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində həyata keçirdiyi hərbi təxribatın qarşısının layiqincə alınması isə göstərdi ki, Azərbaycan Ordusu tarixi missiyasını yerinə yetirməyə hazır və qadirdir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fikirləri məhz bu baxımdan diqqəti çəkir: "Bu gün Azərbaycan Ordusu güclü ordular sırasındadır. Bunu biz bilirik, Azərbaycan xalqı bilir və bütün dünya bilir. Güclü orduların reytinqlərində Azərbaycan Ordusunun çox yüksək yeri vardır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir, günbəgün artır. Ordumuzda nizam-intizam hökm sürür. Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Biz son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika almışıq. O texnikalar ən son texnologiyaya malikdir".

2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında rəşadətli Azərbaycan Ordusunun tarixi Zəfəri ilə başa çatdı. Bu tarixi qələbə, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun döyüş meydanında sərgilədiyi şücaəti ilə qazanıldı.

Azərbaycan xalqı öz gücünü və birliyini sübut etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 44 gün ərzində 30 illik həsrətə son qoydu. Biz öz tarixi torpaqlarımıza alnıaçıq, üzüağ və zəfər bayrağı ilə qayıtdıq.

2020-ci il dekabrın 10-da Bakıda Zəfər paradı keçirildi. Bir çox hadisələrin, unudulmayan anların şahidi olan Azadlıq meydanında keçirilən parad düşmənə də, onun havadarlarına da xatırlatdı ki, Azərbaycan güclü dövlətdir və onun qüdrətli ordusu vardır.

2018-ci ildə Azərbaycan Ordusunun 100 illiyinə həsr olunmuş hərbi paradda Prezident İlham Əliyev xalqa müraciət edərək bildirmişdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". Zəfər paradında dövlətimizin başçısının söylədiyi fikirlər öz təsdiqini tapdı.

**(Ardı 4-cü səhifədə)**

# Qalib ordumuzun şanlı tarixi




(Əvvəli 3-cü səhifədə)

44 günlük Vətən müharibəsi ilə bağlı aparıcı Qərb mətbu orqanlarında, habelə ABŞ-ın Milli Müharibə Kollecinin (National War College) və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində Azərbaycan Ordusunun hərbi taktikası öyrənilərkən belə qənaətə gəlinib ki, İkinci Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və müvafiq ali hərbi məktəblərin dərsliklərinə salınaraq öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini xüsusilə qeyd ediblər.

Azərbaycanın Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törədirdilər. Bütün bu təxribatların qarşısının alınması, Üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü ilin 19-20 sentyabr tarixlərində bölgədə antiterror əməliyyatı keçirildi. Erməni separatçıları cəmi 23 saat 43 dəqiqə ərzində ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağ iqtisadi rayonunda məskunlaşan erməni sakinlərin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq tam atəşkəs haqqında razılaşma əldə olundu və antiterror əməliyyatı dayandırıldı. Nəticədə Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin kəlamları hər bir azərbaycanlıya könül xoşluğu yaşadır: "Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur. Erməni mifini məhv etdik, erməni uydurmalarını məhv etdik, onları yerinə oturtduq; onlar bizim qabağımızda diz çöküblər və bundan sonra bu damğa ilə yaşayacaqlar. Biz isə bundan sonra qürur hissi ilə yaşayacağıq - müzəffər xalq kimi, güclü dövlət kimi, yenilməz ordu kimi, güclü iradə sahibi kimi".

İkinci Qarabağ müharibəsi zamanı qazanılmış təcrübə çevik və sürətli manevrə malik, yüksək dağlıq və çətin şəraitdə döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirə biləcək yeni birləşmələrin yaradılması zərurətini ortaya qoydu. Məhz bu zərurət Quru Qoşunlarının Əməliyyat (Komando) hərbi hissələrinin yaradılmasını aktuallaşdırdı. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə ordumuzda yeni təyinatlı Komando hərbi hissəsi yaradıldı.




Müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Ordusunun Türkiyə ordusunun modeli əsasında yenidən qurulması təşəbbüsü çağdaş dövrün çağırışlarına və Azərbaycanın müdafiə qabiliyyətinin daha da artırılmasına hədəflənən ordu quruculuğu strategiyasıdır. Uğurla həyata keçirilən bu strategiya Azərbaycan Ordusunun hərbi-texniki göstəricilərinin daha yüksək səviyyəyə qaldırılmasını təmin edərək ölkəmizin müdafiə qabiliyyətini qat-qat artıracaq. Türkiyə hərbi sənayesi ilə milli hərbi sənayemizin birgə əməkdaşlığı qarşıya qoyulan məqsədlərə nail olunmasına mühüm töhfələr verəcək.

Azərbaycan Ordusu dövlətin dayağı, xalqın güvənc yeri və qürur mənbəyidir. 1918-ci ildə xalqın azadlıq arzusu ilə atılan ilk addım bu gün Azərbaycan Respublikasının işğal altındakı bütün əraziləri üzərində suverenliyinin bərqərar olunduğu zamana çatdırdı. Bir əsrdən artıq zaman kəsiyində Azərbaycan Ordusu süqutlar, itkilər, yarımçıq qalan ümidlər və sınaqlarla dolu ağır bir yol keçdi. Bu yol 1920-ci ilin qaranlığından, Qarabağ dərdindən keçərək 44 günlük Vətən müharibəsinin işıqlı Zəfərinə çatdı. Bu gün həmin yolun sonunda başıuca, alnıaçıq qalib bir ordu dayanır. Azərbaycan Ordusunun 1918-ci ildə başlanan tarixi missiyası bu gün yerinə yetirilib, lakin onun Vətənə xidmət yolu davam edir. Bu yolda artıq məğlubiyyət xatirələri ilə deyil, Zəfər salnaməsi ilə yazılır və bu salnamə nəsildən-nəslə ötürüləcək milli qürur dastanı kimi yaşayacaq.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Ulu Öndər ideyalarını davam etdirən Ali Baş Komandanın qələbə strategiyası

Tarix boyu güclü dövlət anlayışı güclü ordu amili ilə ölçülüb. Azərbaycanın müasir tarixində bu həqiqət ardıcıl siyasi iradə, sistemli ordu quruculuğu və qətiyyətli liderlik nümunəsi kimi təsdiqini tapıb. Milli ordunun formalaşması və qalib orduya çevrilməsi iki böyük Liderin - Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycan Ordusunun gücü, formalaşması, vahid strateji xəttin davamlı inkişaf yoludur.

1990-cı illərin əvvəllərində xalqımız ciddi sınaqlarla üz-üzə qaldı. Ordunun pərakəndəliyi, vahid komandanlığın olmaması və nizamsızlıq ölkənin təhlükəsizliyini real təhdid altına salmışdı. Məhz belə bir tarixi mərhələdə Ümummilli Lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı milli ordunun formalaşmasında dönüş nöqtəsi oldu.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğunu hərbi məsələ olmaqla bərabər, həm də dövlətçilik konsepsiyasının əsas dayağı kimi qiymətləndirirdi. Dahi şəxsiyyət Heydər Əliyevin zəruri islahatları nəticəsində Silahlı Qüvvələr vahid komandanlıq altında formalaşdırıldı, nizami ordu möhkəmləndirildi. Ordu-xalq birliyi dövlət siyasətinin mühüm istiqamətinə çevrildi.



Ulu Öndər Heydər Əliyevin dövründə hərbi təhsilin inkişafı, peşəkar milli zabit kadrlarının yetişdirilməsi, hərbi intizam və xidmətə məsuliyyətin möhkəmləndirilməsi ordunun keyfiyyətcə yeni mərhələyə keçməsini təmin etdi. O, hərbçinin gücünü təkcə silahda görmürdü, onun mənəvi-psixoloji cəhətdən də güclü olmasını vacib sayırdı. Əbədiyaşar Lider Heydər Əliyev deyirdi: "Ordu ölkəmizin, millətimizin, dövlətimizin, müstəqilliyimizin dayağıdır".

Ulu Öndər Heydər Əliyev kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu strateji irsi qorumaqla kifayətlənmədi, onu dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirdi. Prezident İlham Əliyevin ordu quruculuğu sahəsində apardığı zəruri islahatlar nəticəsində Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə yüksəldi. Belə ki, müasir silahlanma, yüksək texnologiyalar, çevik döyüş taktikası və real döyüş hazırlığı Prezident İlham Əliyevin ordu quruculuğu strategiyasının əsas elementləri oldu. Bu strategiya Azərbaycan Ordusunun maddi-texniki bazasını gücləndirdi, hərbi sənaye komplekslərini formalaşdırdı, yeni istehsal imkanlarını genişləndirdi.

Prezident İlham Əliyev Ali Baş Komandan kimi ordunu idarə etməklə bərabər, onu həm döyüşə hazır vəziyyətə gətirdi, həm də böyük bir gücə çevirdi. Dövlət başçısının hərbi hissələrə səfəri, şəxsi heyətlə birbaşa təması, prinsipial mövqeyi orduya mənəvi ruh və inam aşıladı.

2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində qazanılan qələbə bu qətiyyətli siyasətin nəticəsində mümkün oldu. Azərbaycan Ordusu 44 gün ərzində yüksək peşəkarlıq nümayiş etdirərək mənfur düşmən üzərində tarixi Zəfər qazandı. Bu Zəfər heç də təsadüfi deyildi. Prezident İlham Əliyevin illərlə apardığı məqsədyönlü siyasət, dəqiq strateji məqsəd və qətiyyətli liderliyinin məntiqi yekunu oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi bu idi ki, o, siyasi iradəni hərbi qərarlara çevirdi. Döyüş meydanında əldə edilən uğurlar diplomatik müstəvidə də möhkəmləndirildi və Azərbaycanın regionun əsas hərbi-siyasi gücünə çevrildi.

Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu strategiyası və Prezident İlham Əliyevin bu strategiyanı müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirməsi nəticəsində Azərbaycan Ordusu bu gün ölkəmizin ərazi bütövlüyünün və təhlükəsizliyinin real təminatçısıdır. Azərbaycan Ordusu təsadüfi formalaşmayıb. Bu peşəkarlığa sahib olmaqda böyük ideya, güclü məktəb, davamlı siyasi iradə - ən əsası isə iki Liderin qətiyyəti var.

Bu gün Azərbaycan Ordusu həm regionda, həm də beynəlxalq aləmdə də peşəkarlığı və döyüş qabiliyyəti ilə tanınır. Bu uğurun təməlində Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasəti dayanır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

## Tramp: İki çox vacib ölkə arasında sülh əldə etdim və bunu heç vaxt unutmayacağam"

Onlar yaxşı insanlardır, amma öz mövqelərində dayanan insanlardır. Düşünürəm ki, onlar dost olublar.

AZƏRTAC-ın məlumatına görə, bu sözləri ABŞ Prezidenti Donald Tramp Sülh Şurasının Vaşinqtonda keçirilən ilk iclasında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan haqqında danışarkən söyləyib.

ABŞ Prezidenti bildirib ki, iki çox vacib ölkə arasında sülh əldə edib və bunu heç vaxt unutmayacaq. "Sizə çox təşəkkür etmək istəyirəm. Bu, sizin və yeni dostunuzun etdiyi əla bir şey idi. ...Biz bunu təxminən 24 saat ərzində həll etdik və bu, yaxşı bir hissə oldu. Düşünürəm ki, onlar dostlaşıblar", - deyə o əlavə edib.

## ABŞ-nin Vitse-prezidenti: Siz əla liderlik nümayiş etdirdiniz

Tərəfdaşlığınıza görə, xüsusən də keçən həftə görüşdüyüm Azərbaycan Prezidentinə və Ermənistan Baş nazirinə minnətdarıq.

AZƏRTAC-ın məlumatına görə, bu sözləri ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vens Sülh Şurasının Vaşinqtonda keçirilən ilk iclasında deyib.

"Sülhü mümkün etdiyiniz və əsl liderliyin nələrə nail ola biləcəyini göstərdiyiniz üçün hər birinizə təşəkkür edirəm. Silahları, ölümləri və dağıntıları kənara qoyub xalqınıza və rifaha sərmayə qoyduğunuz zaman bu, böyük işlərə yol açır. Buna görə, etdiyiniz işlərə görə hər ikinizə təşəkkürümü bildirirəm. Düşünürəm ki, siz əla liderlik nümayiş etdirdiniz", - deyə Vens əlavə edib.

*Hərbi təhsil*

# Müasir hərbi təhsil güclü Azərbaycan Ordusunun təminatıdır

**(Əvvəli 1-ci səhifədə)**

Hərbi təhsil sistemi mərhələli şəkildə qurularaq fərdi hazırlıqdan kollektiv fəaliyyətə qədər bütün bacarıqları əhatə edir. Bu, sistemdə nəzəri biliklərlə, praktiki məşğələlərlə və müxtəlif təlimlərlə vəhdət təşkil edir. Fiziki hazırlıq, psixoloji davamlılıq və liderlik keyfiyyətləri hərbi təhsilin ayrılmaz tərkib hissələridir. Müasir döyüşlərin tələbləri hərbi təhsilin daim yenilənməsini zəruriləşdirir.

Hərbi təhsil sisteminin mühüm istiqamətlərindən biri də orta ixtisaslı hərbçi kadrların hazırlanmasıdır. Hərbi kolleclər və tədris mərkəzləri gizir və çavuş heyətinin peşəkar hazırlığını təmin edir. Bu təhsil müəssisələri xidmət zamanı zəruri olan praktiki bacarıqları, döyüş hazırlığını və liderlik keyfiyyətlərini formalaşdırır.

Azərbaycanda hərbi təhsil sistemi davamlı təkmilləşmə əsasında inkişaf etdirilir, mərhələli şəkildə təşkil olunur, ilkin hazırlıqdan ali və orta ixtisas səviyyəsinə qədər bütün pillələri əhatə edir. Bu müəssisələrdə formalaşan kadrlar gələcəkdə bölmələrin əsas dayağına çevrilir. Hərbi təhsil gənclərdə Vətənə sədaqət, dövlətçiliyə bağlılıq və xidmət məsuliyyəti yaradır.





Hərbi liseylər, ali hərbi məktəblər və hərbi kolleclər vahid konsepsiya əsasında fəaliyyət göstərərək kadr hazırlığında ardıcıllığı təmin edir. Hərbi qulluqçular üçün ixtisasartırma və yenidənhazırlanma kursları isə onların bilik və bacarıqları müasir döyüş tələblərinə uyğunlaşdırılır. Beynəlxalq təcrübənin öyrənilməsi və birgə təlimlərin təşkili bu prosesin mühüm tərkib hissəsidir.

Vətən müharibəsində əldə edilən tarixi Zəfər Azərbaycanda hərbi təhsil sisteminin effektivliyini bir daha sübut etdi. Döyüş əməliyyatlarında göstərilən peşəkarlıq, düzgün qərarvermə və yüksək döyüş ruhu özünü hərbi təhsilin real nəticəsi kimi göstərdi. Müharibədən sonra əldə olunan təcrübə tədris proqramlarına inteqrasiya edilərək hərbi təhsilin məzmununu daha da zənginləşdirdi.

Ölkəmizin müdafiə potensialının gücləndirilməsi və hərbi qüdrətinin artırılmasına xidmət edən ordu quruculuğu yeni mərhələyə qədəm qoyub. Müharibənin, döyüş təcrübəsinin, eyni zamanda, müasir hərb sisteminin geniş islahatlarla reallaşdırılması ordunun güc amilinə çevrildi.

2023-cü il dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanına əsasən Bakıda, Gəncədə və Naxçıvanda xüsusi təyinatlı orta ixtisas təhsili müəssisələrinin yaradılması da ordu quruculuğu, peşəkar hərbçi kadrların hazırlanması istiqamətində sistemli tədbirlərin tərkib hissəsi oldu.

Naxçıvan Hərbi Kolleci Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən, müxtəlif ixtisaslar üzrə təhsili və əlavə təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı orta ixtisas təhsil müəssisəsidir. Kollecin fəaliyyəti Azərbaycan Ordusu üçün orta ixtisas təhsilli subbakalavr peşə-ixtisas dərəcəli, milli-mənəvi və ümumbəşəri dəyərlərə malik, sağlam əqidəli, vətənpərvər, cəsur, mətin, intizamlı və müasir dünyagörüşlü mütəxəssislər hazırlamaqdan, əlavə təhsil üzrə kadr hazırlığını həyata keçirməkdən ibarətdir. Kollecdə tədris prosesi müasir hərbi standartlara uyğun qurulub, nəzəri biliklər praktiki məşğələlərlə vəhdət təşkil edir. Kursantlara hərbi nizamnamələr, taktiki hazırlıq, atıcılıq, topoqrafiya, rabitə, mühəndis hazırlığı, fiziki və psixoloji hazırlıq üzrə fənlər tədris olunur.

Tədris zamanı real döyüş şəraitinə yaxınlaşdırılmış metodlardan istifadə edilir. Sahə təlimləri və taktiki məşğələlər kursantların döyüş bacarıqlarının formalaşdırılmasına xidmət edir. Kollecdə çalışan zabit-müəllim heyəti döyüş təcrübəsinə malik, peşəkar kadrlar olmaqla, kursantlara yalnız bilik deyil, eyni zamanda, xidmət nümunəsi göstərirlər. Tədris prosesində Vətən müharibəsindən əldə olunan təcrübələr müasir döyüş taktikaları ilə inteqrasiya olunur.

Kollecdə kursantların gündəlik fəaliyyəti ciddi hərbi nizam-intizam əsasında təşkil olunur. Dərs günü fiziki hazırlıqla başlayır, ardınca dərs və təlim məşğələləri keçirilir. Bu rejim gənclərdə məsuliyyət, dəqiqlik və özünənəzarət vərdişlərinin formalaşmasına mühüm töhfə verir. Kursantlar müxtəlif hərbi-idman yarışlarında, taktiki tapşırıqlarda və maarifləndirici tədbirlərdə fəal iştirak edirlər. Onların asudə vaxtı da məqsədyönlü - səmərəli şəkildə təşkil olunur.

Kursantların fiziki hazırlığı da qarşıya qoyulan prioritet məqsədlərdən biridir. Vətən müharibəsi döyüşdə fiziki hazırlığın nə qədər əhəmiyyətli olduğunu bir daha sübut etdi. Naxçıvan Hərbi Kollecində kursantların fiziki hazırlığı ilə yanaşı, əlbəyaxa döyüş və digər idman növləri üzrə dərnəklər də fəaliyyət göstərir.

Kollecdə mənəvi-psixoloji hazırlığa xüsusi önəm verilir. Kursantlara dövlətçilik, Hərbi Andın məsuliyyəti və komandir-əsgər münasibətlərinin əsas prinsipləri də aşılanır. Bu, onların gələcəkdə daha hazırlıqlı və inamlı xidmətinə zəmin yaradır.

Ümumilikdə 4 hektar ərazidə yerləşən 7 binadan ibarət olan Hərbi kollecin təhsil korpusu zəngin maddi-texniki bazaya malikdir. Arxitektura baxımından mükəmməl 2 tədris korpusunda yüksək zövqlə dizayn edilmiş mühazirə və məşğələ otaqları, kabinə və



mərkəzlər mövcuddur. Dərslər hərbi nizamnaməyə uyğun olaraq həm nəzəri, həm də praktiki şəkildə tədris olunur. Təlim prosesində ən son modifikasiyalı texnologiyalardan istifadə edilir. Burada elektron zalları, zəngin kitab fondu olan üçmərtəbəli kitabxana binası, kursantların sağlamlığı və fiziki hazırlığının daim diqqət mərkəzində saxlanılması məqsədilə idman zalı, futbol meydançası, müxtəlif idman qurğuları, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün klub-konfrans zalı, hər cür şəraitə malik müasir yataqxana, həmçinin üçmərtəbəli sosial xidmət mərkəzi fəaliyyət göstərir.

Müvafiq dövlət sərəncamı ilə kollec statusu alan Naxçıvan Hərbi Kolleci bu gün Azərbaycan Ordusunun peşəkar kadr bazasının formalaşmasında mühüm rol oynayır. Kursantların təhsil müddətində hüquq və vəzifələri "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi", "Hərbi xidmətkeçmə haqqında Əsasnamə", "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və hərbi xidmət sahəsində Azərbaycan Respublikasının digər qanunları, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin digər fərmanları və sərəncamları, Müdafiə Nazirliyinin normativ



hüquqi aktları ilə müəyyən olunur.

Müəssisəyə - orta ixtisas təhsili pilləsinə tam orta təhsili olan şəxslər və zabit hərbi rütbəsi olmayan hərbi qulluqçular qəbul edilirlər. Namizədlər Müdafiə Nazirliyi tərəfindən sağlamlıq vəziyyətinin müayinəsinin nəticələrinə əsasən seçilir. Kursant adını qazananlar Azərbaycan dilində, iki illik əyani təhsil müddətində ödənişsiz yataqxana, gündə 3 dəfə yeməklə təmin olunurlar. Həmçinin onlar üçün müəyyən məbləğdə birdəfəlik və təhsil müddətində aylıq ödəmələr müəyyənləşdirilib.

Hal-hazırda Naxçıvan Hərbi Kollecində 700-ə yaxın kursant hərbi təhsilin müxtəlif istiqamətləri üzrə 7 subbakalavr ixtisasının 19 hərbi uçot ixtisası üzrə təhsil alır. Kursantların tədrisi və intizamı ilə 100-ə yaxın zabit-müəllim heyəti məşğul olur.

Kollecdə orta ixtisas təhsilini başa vuran kursantlara müvafiq qaydada təhsil haqqında dövlət sənədi - diplom, habelə hərbi uçot ixtisasları üzrə 3-cü məharət dərəcəsi və sertifikat, eləcə də müdafiə nazirinin əmri ilə "gizir" hərbi rütbəsi verilir.

Regionda cərəyan edən hadisələr, xarici təhdidlər ölkəmizin hərbi qüdrətinin artırılmasını, bütün tapşırıqları dəqiqliklə yerinə yetirə bilən müasir orduya, çevik xüsusi təyinatlı bölmələrə malik olmasını şərtləndirir. Bu baxımdan ən yeni texnoloji biliklərə, innovativ təlim bacarıqlarına yiyələnən kadrlara da ciddi ehtiyac var. Əminik ki, Naxçıvan Hərbi Kolleci gələcəkdə ordumuzun kadr təminatında, Vətənimizin müdafiəsində mühüm rol oynayacaq, xüsusi təyinatlı təhsil müəssisəsinin məzunları öz peşələrinin qəhrəmanlarına çevriləcəklər.

Yeni yaradılan Naxçıvan Hərbi Kolleci Zəfər yolunun davamı, güclü Azərbaycan Ordusunun gələcəyinə istiqamətləndirilmiş strateji addımdır. Burada formalaşan hərbi qulluqçular yalnız peşəkar biliklərə deyil, eyni zamanda, qalib ordunun daşıdığı şərəf və məsuliyyətə də yiyələnirlər. Onlar Vətənə xidmətin müqəddəs borc olduğunu dərk edərək bu amalın daşıyıcısı olurlar.

Bu təhsil ocağında formalaşan hər bir kursant qalib xalqın, qalib dövlətin, qalib ordunun hərbi qulluqçusu kimi formalaşır. Naxçıvan Hərbi Kolleci Azərbaycan Ordusunun kadr potensialını gücləndirməklə yanaşı, milli iradənin, dövlətçiliyin və Zəfər ruhunun gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Güclü hərbi təhsil - güclü ordu, güclü ordu isə qüdrətli Azərbaycanın təminatıdır.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Şəhidlərimizin xatirəsinə həsr olunan anım mərasimləri keçirildi

İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış leytenant İbrahim Mustafa oğlu Əliyevin doğum günü ilə əlaqədar olaraq şəhidimizin məzarı ziyarət olundu.

Kəngərli rayonunun Qabıllı kəndində keçirilən anım mərasimində rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular və kənd sakinləri iştirak etdilər.

Mərasim Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Kəngərli rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək şəhid zabit İbrahim Əliyevin ömür yolundan, onun Vətən müharibəsində göstərdiyi şücaətindən danışdı. Bildirdi ki, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin adı uca tutulacaq, onların xatirəsi qəlblərdə əbədi yaşayacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə, müharibə iştirakçılarına göstərdiyi yüksək diqqət və qayğı xüsusi vurğulandı, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan tarixi Qələbənin Azərbaycan dövlətçiliyi üçün müstəsna əhəmiyyəti qeyd edildi.




Digər çıxış edənlər şəhidlərimizin qanının yerdə qalmadığını, onların fədakarlıqlarının gələcək nəsillər üçün örnək olduğunu vurğuladılar.

Məktəblilərin səsləndirdiyi vətənpərvərlik ruhlu şeirlər isə mərasimə duyğusal çalar qatdı.

Qeyd edək ki, İbrahim Əliyev 17 fevral 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunun Qabıllı kəndində dünyaya gəlib. 2014-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2018-ci ildə isə indiki Heydər Əliyev adına Hərbi İnstitutu bitirib. Həmin ildən "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Xidmətinə sevgi və məsuliyyətlə yanaşan İbrahim qardaş ölkə olan Türkiyədə də təhsil alaraq peşəkarlığını daha da artırıb. Xidmət müddətində dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb.

Üç bacının bir qardaşı, ailənin son beşiyi olan İbrahim Vətən müharibəsinin ilk günlərindən döyüş əməliyyatlarına qoşulub. Silah yoldaşları ilə birlikdə Gülüstan dərəsi-İncəçay istiqamətində düşmən postunun ələ keçirilməsində iştirak edib. Sentyabrın 29-da igid hərbçimiz düşmən atəşi nəticəsində şəhadətə yüksəlib.

Şəhidimiz dekabrın 7-də doğma Qabıllı torpağında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, İbrahim Əliyev ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

* * *

Torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan Naxçıvan şəhər Tumbul kənd sakini İbrahim Etibar oğlu İbrahimovun doğum gününə həsr olunan anım mərasimi keçirildi.

Naxçıvan şəhər sakinləri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarından olan şəhidlərin ailələri, müharibə veteranları, hərbi qulluqçuların da iştirak etdiyi tədbirdə Naxçıvan şəhər İcra Hakimiyyətinin vəzifəli şəxsləri, Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət xidmətinin Naxçıvan şəhər idarəsinin rəhbərliyi, Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhər təşkilatının rəhbərliyi və kollektivi, digər güc strukturlarının əməkdaşları şəhidin ailəsinə başsağlığı verərək şəhidimizin məzarı üstünə tər çiçəklər düzdülər.

Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni ifa olundu.

Mərasimdə çıxış edənlər bildirdilər ki, 44 günlük Vətən müharibəsində bütün dünya güclü həmrəyliyin, yenilməz ruhun bir daha şahidi oldu. Azərbaycan xalqı, Azərbaycan dövləti göstərdi ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz.

Qeyd olundu ki, hər bir Azərbaycan vətəndaşı qəhrəmanlarımızı tanımalı, onların keçdiyi həyat və döyüş yolunu öyrənməlidir. Şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmağın, onları gəncliyə nümunə göstərməyin hamımızın borcu olduğu vurğulandı.

İbrahim İbrahimov 18 fevral 1992-ci ildə Naxçıvan şəhərində doğulub. İlk təhsilinə 1998-ci ildə Naxçıvan şəhəri 15 saylı tam orta məktəbdə başlayan İbrahim 2009-cu ildə orta məktəbi bitirib, hərbi xidmətə yollanıb.

2011-ci ildə hərbi xidmətini başa vuran İbrahim Etibar oğlu İbrahimov 2020-ci ildə yenidən ordu sıralarına qayıdıb. Əlahiddə Ümumqoşun Ordunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi İkinci Qarabağ müharibəsində iştirak edib. İbrahim İbrahimov Füzuli, Cəbrayıl, Zəngilan və Xocavəndin düşmən işğalından azad olunmasında şücaət göstərib. 30 oktyabr 2020-ci ildə Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olub, Naxçıvan şəhər qəbiristanlığında dəfn edilib.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə İbrahim Etibar oğlu İbrahimov ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidlərimiz qısa ömürlərinə böyük bir Vətən sevgisi sığdırdılar. Onların adı yalnız bir ailənin yox, artıq bütöv bir xalqın yaddaşına əbədi həkk olunub.

**Bəxtiyar ƏLİYEV**
**“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin mətbuat katibi**





## Rabitə ixtisaslı zabitlərlə təlim-metodiki toplanış keçirilib

2026-cı ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə və hərbi hissələrinin, eləcə də Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrinin rabitə ixtisaslı zabitləri ilə təlim-metodiki toplanış keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, toplanış zamanı rabitə ixtisaslı zabitlərin əməliyyat və ixtisas hazırlığı üzrə metodiki və nəzəri bilikləri təkmilləşdirilib, praktiki bacarıqları inkişaf etdirilib. İştirakçılara ordumuzun rabitə və informasiya texnologiyaları sisteminə inteqrasiya edilən yeni sistem və vasitələri barədə məlumat verilib, onların döyüş imkanları praktiki olaraq nümayiş olunub.

Tədbirdə "Azərkosmos" ASC-nin fəaliyyət istiqamətləri, həmçinin ölkəmizdəki qabaqcıl şirkətlərin istehsal etdiyi yeni texnologiyalar və onların döyüş imkanları barədə təqdimatlar verilib.




## Cəmşid Naxçıvanski adına Hərbi Liseydə fövqəladə hallar üzrə təlim keçirilib



Müdafiə Nazirliyinin Yanğından Mühafizə İnspeksiyası və Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseydə birgə təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, müvafiq canlı qüvvə və texnikanın cəlb edilməsi ilə keçirilən təlimin məqsədi fövqəladə hallar, o cümlədən yanğınlarla bağlı davranış qaydalarının aşılanması, yanğından mühafizə bölmələrinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və şəxsi heyətin xilasetmə üzrə peşəkarlığının artırılmasıdır.

Əvvəlcə yanğınlar zamanı zəruri davranış qaydaları və təxliyə tədbirləri barədə ətraflı məlumat verilib, təlim iştirakçılarına ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani şəkildə nümayiş etdirilib.

Təlimin praktiki hissəsində isə müəssisə ərazisində şərti yanğının söndürülməsi və digər tapşırıqlar üzrə fəaliyyətlər yerinə yetirilib, yanğın təhlükəsizliyinə məsul əməkdaşlara maarifləndirici materiallar təqdim olunub, onları maraqlandıran suallar cavablandırılıb.



# Azərbaycan Ordusunda yunan-Roma, sərbəst güləş və cüdo üzrə birincilik keçirildi



Hər il olduğu kimi, bu il də Azərbaycan Ordusunda yunan-Roma, sərbəst güləş və cüdo üzrə birincilik keçirildi. Heydər Əliyev adına Hərbi İnstitutun idman bazasında keçirilən yarışda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Komandalar idman rəislərinin rəhbərliyi altında səhra geyimində düzülmüşdülər. Yarışın keçirilməsinə rəhbərlik edən polkovnik Cavid Ağayev əvvəlcə yarış iştirakçılarını salamladı. Onlara qarşıdakı gərgin mübarizədə uğurlar arzuladı. Bildirdi ki, yarış ərzində hər bir idmançı nizam-intizam qaydalarına riayət etməlidir. Həm yarış zamanı, həm də yarışdan kənar idmançı intizam pozuntusuna yol verərsə, mübarizədən kənarlaşdırılacaq. Əlavə etdi ki, yarışı Mərkəzi Ordu İdman Klubunun respublika dərəcəli hakimləri Süleyman Balakişiyev, Etibar Rzayev, Coşqun Əzizov və Rauf Vəliyev idarə edəcəklər.

Polkovnik C.Ağayev yunan-Roma, sərbəst güləş və cüdo üzrə birincilikdə iştirak edən komandaların tərkibini yoxladı. İdmançılara yarışın məqsədini və təhlükəsizlik qaydalarını çatdırdı. Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən idmançılar gərgin mübarizə şəraitində birincilik uğrunda mübarizə aparacaqdılar. Mübarizəyə qatılan idmançının potensialına, gücünə və texniki imkanlarına bələd olmayanlar üçün maraq doğuran bir mənzərə idi. Polkovnik C.Ağayev ilk mübarizəyə qoşulacaq yunan-Roma üzrə güləşçiləri düzərək, onlara yarışın qaydalarını bir daha xatırlatdı.







### Yunan-Roma güləşi

Yarış başlamazdan öncə hakimlərin də iştirakı ilə yunan-Roma güləşi üzrə mübarizə aparacaq idmançıların çəki dərəcələri müəyyən edildi. Birincilikdə 11 komanda mübarizə aparırdı. Yunan-Roma güləşi üzrə 10 çəki dərəcəsində (55 kq, 60 kq, 63 kq, 67 kq, 72 kq, 77 kq, 82 kq, 87 kq, 97 kq və 130 kq) 110 nəfər idmançı təmsil olunurdu. Onların çəki dərəcələri və qarşılaşacaqları rəqiblər müəyyən edildi. Yarışın baş hakimi Süleyman Balakişiyev əvvəlcə hər çəki üzrə komandaların tərkibini müəyyənləşdirdi. Daha sonra hakimlərin iştirakı ilə mübarizə aparacaq idmançıların adlarını açıqladı. Çox keçmədi ki, yarışın baş tutacağı zala hakimlər, idmançılar və onları təmsil edən komanda üzvləri daxil oldular. Yarışın təşkilatçı zabitləri və hakimlər öz yerlərini tutduqdan sonra 55 kq çəkidə mübarizə aparacaq idmançılar döşəyə dəvət olundular. Quru Qoşunlarının (QQ) təmsilçisi Zamiq Kərimov Hərbi Dəniz Qüvvələrin (HDQ) idmançısı Zaur Bağırovla qarşılaşdı. Mübarizə gərgin davam etsə də, son anda QQ-nin təmsilçisi Zamiq Kərimov Zaur Bağırova məğlub oldu. Yunan-Roma güləşinin ilk günü böyük canlanma ilə keçdi.

İdmançılar arasında zabitlər, gizirlər, çavuşlar və əsgərlər vardı. Onlar güləş döşəyində bərabərhüquqlu sayılırlar. Müddətli əsgərlər də çəki dərəcələrinə görə zabit və gizirlərlə qarşılaşırdılar.

Yunan-Roma güləşi üzrə birinciliyə qatılan komandalar hazırlıqlı idilər. Yarış mərhələ-mərhələ irəlilədikcə yarımfinal və finala yaxınlaşırdı. Fərdi qaliblərin topladığı xallar komandaların hesabına yazılırdı. Hər bir idmançı mübarizədən qələbə ilə ayrılmaqla təmsil olunduğu komandanı irəli aparmış olurdu. QQ-nin idmançıları Nadir Məhiyev Musail Musayevə, Murad Balabəyov Emin Poladova, Qəhrəman Həsənəliyev Zaur Mehdiyevə, Rəvan Həsənov Kənan Talıblıya və Qəfər Nəsirov Sahil Hüseynova finalda öz çəki dərəcələri üzrə qalib gələrək təmsil etdikləri komandanı birinci yerə çıxartdılar. Gərginliyi ilə seçilən yunan-Roma güləşi komandasının QQ üzrə rəhbəri kapitan Malik Gülmalıyev idmançıların əldə etdiyi nəticələrdən olduqca razı göründü. O, yarış boyu idmançıların yanında olur, onları mübarizəyə ruhlandırırdı. Yunan-Roma güləşindən qələbəylə ayrılan komandanın kapitanını dinləmək xoş idi. Kapitan Malik Gülmalıyev dedi:

- Bu yarışa hazırlaşmaq üçün vaxt tələb olunurdu. Quru Qoşunları komandanlığının göstərişinə əsasən, biz qısa zamanda ən güclü və peşəkar idmançıları bir araya toplaya bildik. Onların arasından daha yaxşılarını seçdik və komandanı formalaşdırdıq. Bunun nəticəsidir ki, bu gün biz Azərbaycan Ordusunda keçirilən yunan-Roma güləşi üzrə yarışdan qalib komanda kimi ayrılırıq.

### Sərbəst güləş

Yarış cədvəlinə əsasən yunan-Roma güləşindən sonra sərbəst güləş üzrə yarış keçirildi. Bu idman növlərindən daha ağır hesab olunur və idmançıdan daha çox güc tələb edir. Yarışın əsas hakimi Coşqun Əzimov Mərkəzi Ordu İdman Klubunun məşqçisidir. O, döşək üzərində mübarizə aparan hər bir idmançının gücünü və texniki imkanlarını, işlətdiyi fəndi daha yaxşı görərək güləşçiyə xal verirdi. Qaranlıq, mübahisəli məqamlar yarandıqda baş və yan hakimlərin qərarını nəzərə alaraq, idmançının layiq olduğu xalı bərpa edirdi.



Sərbəst güləşçilər arasında respublika üzrə keçirilən yarışlarda yer tutan idmançılar da vardı. Peşəkar güləşçi Elvin Dünyamalıoğlu 74 kq çəkidə final yarışında təcrübəli idmançı Ağası Allahverdiyevə qalib gələrək birinci yerə layiq görüldü. Hər iki hərbi qulluqçu kifayət qədər sərbəst güləşdə öz sözünü deyən idmançıdır.

Hakim finalda 70 kq çəkidə Mehran Rüstəmovu Amil Ələsgərovla mübarizə üçün döşəyə dəvət etdi. Mehran bu il daşqaldırma üzrə ordu birinciliyində də iştirak edərək öz çəki dərəcəsi üzrə fərdi qalib olub. Onda olan və idmançıya məxsus, demək olar ki, bir çox keyfiyyətlər - çeviklik, fiziki güc, təmkinli olmaq kimi mühüm amillər yarışlarda uğur gətirib. Bütün mərhələləri yüksək səviyyədə keçən Mehran finalda son saniyələrdə rəqibə az xal fərqi ilə məğlub olaraq yarışın ikincisi oldu.

Bütün çəki dərəcələri üzrə birincilik gərgin mübarizə şəraitində davam etdirildi. Burada da komandalar üzrə üstünlük QQ komandasında idi. HHQ, XTQ və HDQ-nin komanda üzvləri də təmsil olunduqları komandanı qalib çıxarmağa çalışırdılar. HHQ-nin güləşçiləri Amil Ələsgərov birinci, Ağası Allahverdiyev, Samir Zeynalov və Qədin Əhmədov isə ikinci yerə çıxaraq komandanı sərbəst güləş üzrə ikinci etdilər.

### Cüdo

Cüdonun vətəni Yaponiyadır. Cüdo yapon döyüş növüdür. Ötən əsrin ortalarında Olimpiya oyunlarına idman növü kimi daxil edilib. Dünya və Olimpiya oyunlarına daxil edildikdən sonra cüdo idman növü kimi daha da məşhurlaşdı. Ölkəmizdə də bu idmana maraq göstərən gənclər az deyil. Hərbçilər arasında peşəkar cüdoçular çoxdur. Onlar Azərbaycan Ordusunda keçirilən birincilikdə bu dəfə yunan-Roma və sərbəst güləşdən fərqli olaraq, 7 çəki üzrə mübarizə apardılar. XTQ-nin komanda rəhbəri mayor Mobil Hacıyev dedi ki, təmsil etdiyi komandanın tərkibində peşəkar cüdoçular var. Onlara çox güvənir. Hər çəki üzrə fərdi birinci olmaqla, komandaya xal gətirəcəklər. Çünki onlar yarış öncəsi ciddi hazırlaşıblar.

Cüdo birinciliyinin ilk günü idmançıların fəallığı ilə yadda qaldı. Tatamiyə çıxan hər bir cüdoçu rəqibini məğlub etməyə çalışırdı. Yarışa qatılan idmançılar illər əvvəl yaşadıqları rayon və şəhərlərdə bu idman üzrə müəllim yanına gedib, yetərincə təcrübə qazanıblar. Onlar həm rayonlararası, həm də respublika və dünya çempionatlarında iştirak etmiş idmançılardır. Belə olduğu halda birincilik uğrunda gərgin mübarizənin davam edəcəyi gözlənilən idi. Azərbaycan Ordusunda cüdo birinciliyində finala çıxmaq özü böyük bir uğur olmaqla yanaşı, idmançını növbəti yarışa ruhlandırır.

Cüdo yarışında QQ ilə mübarizədə XTQ-nin idmançıları daha ciddi fəallıq nümayiş etdirdilər. Komandanın təmsilçisi mayor Mobil Hacıyev hər bir idmançıya mübarizədən qələbə ilə ayrılması üçün dəstək verirdi. Buna baxmayaraq güclü, üstün texniki imkanlara malik cüdoçular fürsəti qaçırmırdılar. Bəzən tatamiyə çıxan idmançılar hakimin fitindən sonra rəqibin ani diqqətsizliyini fürsət bilib, onu cəld "ippon"a salırdı. Bu isə cüdoda təmiz qələbə sayılır. Təcrübəli hakim, peşəkar cüdoçu Rauf Vəliyev yarışı ustalıqla idarə edirdi.

Yarışda yarımfinal və final mərhələsinə çıxan komandalar arasında QQ, XTQ, HDQ və HHQ daha fəallıqla seçilirdilər. Artilleriyaçılar da mübarizədə əzmkarlıq nümayiş etdirsə də, istədikləri nəticəni əldə edə bilmədilər.

Yarışın sonuncu günü Əlif İskəndərzadə, Eyvaz Baxşıyev, Əlikram Muradzadə, Vaqif Tarverdiyev, Rəşid Məmmədzadə, Tural Əsədov və başqa idmançılar mübarizədə sona qədər fəallıq nümayiş etdirdilər. Birincilik başa çatdıqdan sonra hakimlərin qərarı elan edildi. Artıq qaliblər müəyyən olundular.

Heydər Əliyev adına Hərbi İnstitutun idman şəhərciyində, açıq səma altında komandalar tam tərkibdə düzüldülər. Hərbi orkestrin sədaları altında qalib gələn idmançılara polkovnik C.Ağayev medallar və fəxri fərmanlar, birinci yerə çıxan komanda rəhbərlərinə kuboklar, ikinci və üçüncü yerə layiq görülən komanda kapitanlarına isə diplomlar təqdim etdi. Sonda idmançılar xatirə şəkli çəkdirdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



## Fiziki hazırlıq

# “Fiziki hazırlıq bizə mübarizə aparmağı öyrədir”

(Əvvəli 1-ci səhifədə)

Şəxsi heyət səhər tezdən başlanılan ümumi idman hərəkətləri ilə günə enerjili start verir, axşam saatlarında isə fiziki hazırlıq məşğələləri ilə döyüş qabiliyyətini daha da möhkəmləndirir.

Komandirlərin birbaşa rəhbərliyi altında keçirilən bu məşqlər hərbi qulluqçuların çeviklik, sürət, güc və dözümlülüyünün formalaşdırılmasına xidmət etməklə yanaşı, onların psixoloji dayanıqlığını da artırır.

Müdafiə Nazirliyi rəhbərliyinin ardıcıl diqqət və qayğısı nəticəsində hərbi hissənin ərazisində müasir standartlara cavab verən idman şəhərciyi yaradılıb. Burada turniklər, qaçış zolaqları, maneələr zolağı və müxtəlif idman hərəkətləri üçün nəzərdə tutulmuş meydançalar əsgərlərin istifadəsinə verilib. Bu şərait şəxsi heyətin həm peşəkar hazırlığını yüksəldir, həm də sağlam həyat tərzinin orduda geniş şəkildə təşviqinə mühüm töhfə verir.

"N" hərbi hissəsində keçirilən fiziki hazırlıq məşğələləri təkcə ümumi proses deyil, eyni zamanda, döyüş yolu keçmiş, real əməliyyatlarda iştirak etmiş hərbi qulluqçuların iştirakı ilə daha da məzmunlu və nümunəvi xarakter daşıyır. Bu məşğələlərdə Vətən müharibəsinin və antiterror əməliyyatının iştirakçıları olan peşəkar hərbçilər xüsusi fəallıq nümayiş etdirir, gənc əsgərlər üçün canlı örnəyə çevrilirlər.

Fiziki hazırlıq dərslərində iştirak edənlər arasında gizir Namiq Əlizadə də var. Biləsuvar rayonunun Günəşli kəndində anadan olan Namiq artıq 5 ildir ki, Vətənə şərəflə xidmət edir. 2023-cü ilin antiterror əməliyyatında göstərdiyi igidliyə görə "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif olunub. O, fiziki hazırlıq məşğələləri barədə fikirlərini belə bölüşdü: "Döyüş zamanı insanın güvəndiyi ilk şey öz fiziki hazırlığıdır. Nə qədər güclü və dözümlü olsan, bir o qədər tapşırığı layiqincə yerinə yetirə bilirsən. Buradakı məşğələlər bizi real döyüş şəraitinə hər gün hazır vəziyyətdə saxlayır".

Gizir Cavad Quliyev isə Cəlilabad rayonunun Günəşli kəndindəndir. Cavad artıq 6 ildir ki, hərbi xidmətdədir. O, həm 44 günlük Vətən müharibəsinin, həm də 2023-cü ilin antiterror əməliyyatının iştirakçısıdır. "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" və "Şücaətə görə" medalları ilə təltif edilib. Cavad bildirdi ki, onlar üçün fiziki hazırlıq sadəcə idman deyil, döyüşdə qalib gəlmək deməkdir. Fiziki hazırlıq bizə mübarizə aparmağı öyrədir".

Uzun illərdir ordu sıralarında xidmət edən çavuş Xəyyam Qədirzadə də keçirilən fiziki hazırlıq məşğələlərinin fəal iştirakçılarındandır. Sumqayıt şəhərində yaşayan Xəyyam artıq 11 ildir ki, hərbi xidmətini davam etdirir. 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında iştirak edən hərbi qulluqçumuz "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Onun sözlərinə görə döyüş meydanında yorğunluq anlayışı olmur. "Fiziki hazırlıq bizə son ana qədər mübarizə aparmağı öyrədir. Hər məşq bizim iradəmizi daha da möhkəmləndirir".

Fiziki hazırlıq dərslərində fəal iştirak edən müddətdən



artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rüfət Səlimov 4 ildir hərbi xidmətdədir. 2023-cü ilin antiterror əməliyyatının iştirakçısı olan hərbçi "Cəsur döyüşçü" və "Şücaətə görə" medalları ilə təltif olunub. O, keçirilən fiziki hazırlıq məşğələlərinin əhəmiyyətini belə dəyərləndirdi: "Burada keçirilən dərslər bizi həm fiziki, həm də mənəvi cəhətdən gücləndirir. Komanda ruhu formalaşır, hər kəs bir-birinə arxa-dayaq olur".

Uzun xidmət yolu keçmiş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Mirdamət Xankişiyev isə Şamaxı rayonunda anadan olub. 11 ildir ki, ordu sıralarında olan hərbçimiz 44 günlük Vətən müharibəsində Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda aparılan döyüşlərdə iştirak edib, "Şücaətə görə" medalı ilə təltif olunub. Mirdamət vurğuladı ki, hərbi qulluqçu həm fiziki, həm də mənəvi-psixoloji cəhətdən güclü olmalıdır. “Bizim fiziki hazırlığımız ordunun döyüş qabiliyyətinin əsas dayaqlarındandır”.

Bu cür təcrübəli, döyüş yolu keçmiş hərbi qulluqçuların fiziki hazırlıq dərslərində iştirakı gənc əsgərlər üçün nümunədir. Onların şəxsi nümunəsi, söylədikləri fikirlər və göstərdikləri iradə Azərbaycan Ordusunda mövcud olan peşəkarlığın, vətənpərvərliyin və döyüş ruhunun bariz göstəricisidir.



**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Uğurlarınız bol olsun!










2026-cı ilin 16 fevral tarixində Abşeron OİK-də keçirilən qadınlar və kişilər arasında "NE-WAZA üzrə ACF kuboku" cüdo yarışmasında əsgər-idmançı Murad Əliyev 66 kq çəki dərəcəsində çıxış edərək 1-ci yerə layiq görülüb.

İdmançımızı təbrik edir, uğurlarının davamını arzulayırıq.

* * *

2026-cı ilin 8-13 fevral tarixlərində Gəncə şəhərində keçirilən yeniyetmələr (U-17) arasında güləş üzrə Azərbaycan çempionatı başa çatıb. Gərgin və maraqlı keçən mübarizədə yüksək əzmkarlıq nümayiş etdirən “Ordu” İdman Klubunun pəhləvanları - Ömər Salmanov (48 kq) qızıl medal, Yaşar Məmmədov (80 kq) bürünc medal qazanıb.

İdmançılarımızı təbrik edir, yeni qələbələr arzulayırıq.

**"Azərbaycan Ordusu"**

Xəlilov Muxtar Məmmədxan oğluna verilmiş MV № 014475 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Namazov Eyvaz Çingiz oğluna verilmiş MV № 113198 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Daşdəmirov Qədir İsmayıl oğluna verilmiş MV № 121539 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İbrahimov Ədalət İbrahim oğluna verilmiş MV № 471725 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Həkimov Zaur Şahmurad oğluna verilmiş AD № 0009397 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ələsgərov İsmayıl Telman oğluna verilmiş AD № 0066008 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ağayev Adəm Gülağa oğluna verilmiş AD № 0044530 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abdullayev Babək İlham oğluna verilmiş AD № 0038435 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ağayev Emin Murtuz oğluna verilmiş AD № 0033747 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vahabov Vüsal Vahab oğluna verilmiş AD № 0026641 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ərzumanov Nurlan Rövşən oğluna verilmiş AD № 0033814 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefon**
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Elçin İMANOV

Lisenziya № 361
Sifariş № 77
Nüsxə 3621